# Müstəqil dövlətçilik ənənələri əsas prinsiplərdir



Azərbaycanın ictimai-siyasi həyatında ən önəmli yer tutan, böyük siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ili tamam olur. Xalqımızın ən mütəşəkkil, kamil ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası ölkəmizin olduqca zəngin, məhv olmaq təhlükəsi ilə üzbəüz qaldığı bir vaxtda xalqımızın ulu öndəri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yaradılmışdır. Demokratik və hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda siyasi partiyanın rolunu böyük uzaqgörənliklə dəyərləndirən Heydər Əliyev 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasını yaratdı. O, Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələrkən bu partiyanı iqtidara gətirdi.

Yeni Azərbaycan Partiyasının proqramı qısa müddətdə dövlətin inkişaf proqramına çevrildi. Bu gün inkişafın yeni mərhələsini yaşayan ölkəmizin qazandığı ölçüyəgəlməz uğurlarda Yeni Azərbaycan Partiyasının hər bir üzvünün əməyi danılmazdır.

Məhz Yeni Azərbaycan Partiyasının yarandığı, təşəkkül tapdığı, formalaşdığı və ümumxalq partiyasına çevrildiyi illər ərzində ulu öndərin siyasi təcrübəsi və iradəsi nəticəsində respublikamızda baş alıb gedən siyasi böhrana, vətəndaş müharibəsi təhlükəsinə, dövlət çevrilişi cəhdlərinə son qoyuldu, vətəndaş həmrəyliyi təmin edildi. Ümummilli liderimiz çox çətinliklə də olsa suveren, müstəqil Azərbaycan dövlətini qurdu.

Müstəqilliyimizin ilk illərində bir çox çətinliklərlə qarşılaşan ulu öndər xalqın inamı və etibarı, onun dəstəyi ilə olduqca böyük çətinlikləri uğurla adlaya bildi. Xalq-iqtidar birliyinin əsası qoyuldu.

Ulu öndər Heydər Əliyev 1990-cı ilin 17 noyabrında Naxçıvan Ali Məclisində ilk dəfə üçrəngli bayrağımızı ucaltdı, eləcə də 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Ulu öndər Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirdi. Təsis konfransında 500 nəfər iştirak edirdi. Amma bu gün partiyanın sıralarında 700 minə yaxın insan birləşib. Çünki bu partiya ümummilli lider Heydər Əliyevin qurduğu partiyadır. Bu gün YAP-a rəqib ola biləcək hansısa partiya yoxdur.

1993-cü ildə Heydər Əliyev Bakıya gələndə vəziyyət çox acınacaqlı idi. Böhran get-gedə dərinləşirdi. Belə bir vəziyyətdə Heydər Əliyevdən başqa heç kim Azərbaycanı xilas edə bilməzdi. Məhz ümummilli liderimizin qətiyyəti sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olundu, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi. Dövlət çevrilişlərinə cəhdlərin qarşısı qətiyyətlə alındı, ölkənin iqtisadiyyatını dirçəltmək istiqamətində işlər görüldü. Ümummilli liderimizin 10 illik prezidentlik dövrü Azərbaycan dövlətinin inkişaf və tərəqqi dövrü kimi tarixə düşüb. 10 il müddətində Heydər Əliyevin gördüyü işlər 50 ilə bərabər tutula bilər.

Bu bir faktdır ki, demokratik dövlətlərdə gedən ictimai-siyasi proseslərdə siyasi partiyalar amili xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası yarandığı dövrdə iqtidarda təmsil olunmurdu, müxalifət statusu daşıyırdı. Partiyaların iqtidar partiyası olması tarixi bir prosesdir. Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsi təkamül prosesi nəticəsində baş verdi və yaranmasından cəmi altı ay sonra hakim siyasi qüvvəyə çevrildi. YAP cəmiyyətdə öz sosial dayaqlarını artıraraq, cəmiyyəti narahat edən problemlərin həllinin ən səmərəli yolunu müəyyənləşdirdi.

Yeni Azərbaycan Partiyasının respublikada ən güclü siyasi qüvvə kimi mövqe tutmasının təməl prinsipləri mövcuddur. Belə ki, partiyanın ulu öndər Heydər Əliyev kimi dahi, uzaqgörən, böyük siyasi təcrübəyə, idarəetmə qabiliyyətinə və fenomen keyfiyyətlərə malik siyasi liderinin olması, YAP-ın Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında ölkədə hüquqi dövlət, sivil vətəndaş cəmiyyəti, sabit və sosialyönümlü iqtisadiyyat, azərbaycançılıq ideyalarını ehtiva edən milli birlik yaratmaq məqsədinə xidmət etməsi, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması və insanları müstəqil dövlətçilik ətrafında birləşdirməsi kimi amillər bu prinsipləri təşkil edir. Bununla Yeni Azərbaycan Partiyası cəmiyyətin inkişafına özünəməxsus töhfələr verir. Qeyd olunmalıdır ki, Yeni Azərbaycan Partiyası ölkəmizin dünya birliyinin bərabərhüquqlu üzvünə, demokratik dövlətə çevrilməsində qarşıya qoyduğu məsələlərin həllinə layiqincə nail olmaq məqsədilə öz fəaliyyətində müstəqil dövlətçilik, vətəndaş həmrəyliyi prinsiplərinə əsaslanır.

Yeni Azərbaycan Partiyası 1999-cu il 21-22 dekabrda özünün ilk ali orqanı - I Qurultayını keçirdi.

Bu qurultay partiyanın təsis konfranslarında müəyyənləşdirdiyi yaxın dövr üçün vəzifələrini layiqincə yerinə yetirdiyini, cəmiyyətdə rolunun artdığını bəyan etdi, həmçinin partiyanın perspektiv üçün Nizamnamə və Proqramını qəbul etdi. YAP-ın inkişafında müstəsna əhəmiyyət daşıyan partiyadaxili yeni struktur yarandı. Cənab İlham Əliyevin partiya sədrinin müavini seçilməsi ilə partiyanın gəncləşməsi prosesinin bünövrəsi qoyuldu.

Yeni Azərbaycan Partiyasının ulu öndərdən sonrakı dövrü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır.

2005-ci ilin mart ayının 26-da keçirilən YAP-ın III Qurultayında ulu öndərin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev partiyamızın sədri seçildi və bununla da partiyanın tarixində yeni dövrün başlanğıcı qoyuldu.

Bu məqamda mən cənab İlham Əliyevin bir fikrini misal çəkmək istəyirəm. Cənab Prezidentimiz demişdir: "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm".

Həyat sübut edir ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət xətti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla, yüksək peşəkarlıq və yaradıcılıqla davam etdirilir və Azərbaycanı daha uca zirvələrə aparır.

**Cavanşir YUSUBOV,**
**Yeni Azərbaycan Partiyası Mingəçevir Şəhər Təşkilatının sədri.**

Respublika.- 2019.- 22 noyabr.- S.8.